26.09.2025-ci il tarixində Bakı Slavyan Universitetində II Beynəlxalq Balkanşünaslıq konfransı keçirilib.



**Bakı Slavyan Universitetində 26.09.2025-ci tarixində keçirilmiş II Beynəlxalq Balkanşünaslıq konfransında iştirak edən rektor Anar Nağıyevin nitqi:**

**Çox hörmətli akademik Rafael Hüseynov, hörmətli rəsmi qonaqlar, rektorlar, millət vəkilləri, professor-müəllim heyəti, tələbələr, əziz dostlar.**

Mənim və komandam üçün önəmli bir gündə sizi Bakı Slavyan Universitetində salamlamaqdan məmnunam. Bakı Slavyan Universitetinin ənənələrindən birinə çevrilməkdə olan Beynəlxalq Balkanşünaslıq konfransları universitetimizin tədqiqat, təhsil və beynəlxalq əməkdaşlıqları kontekstində yeni bir istiqamət olmaqla BSU-nun bu günki identikliyinin göstəricilərindən biridir. Bu hadisəni bizimlə bölüşdüyünüz üçün və bu günki müzakirələrə verəcəyiniz dəyərli töhfələr üçün hər birinizə təşəkkürümüzü bildirirəm.

Bizim konfransımız Konstitutsiya və suverenlik ili üzrə fəaliyyət planımız çərçivəsində, Azərbaycan tarixinin ən önəmli günlərindən olan Dövlət suverenliyi günü və Anım Günü ərəfəsində keçirilir. Artıq 5-ci ildir ki, payızın gəlişi ilə bütün şəhidlərinin əziz ruhunu elliklə növbəti dəfə yad Azərbaycan xalqı 2023-cü ildən etibarən suverenliyinin tənətənəsini qeyd edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüzün təmin olunması və qazanılmış suverenliyimiz yeni tariximizin qızıl səhifələrindən biri olmaqla dəyişən dünyada həm cənubi Qafqaz, həm də daha geniş regionumuzda geosiyasi reallıqları şərtləndirən mühüm amillər olmuşdur. Nəhayət ki, Cənubi Qafqazda uzun müddətli sülh və əməkdaşlıqlar üçün imkanlar yaranmışdır. Biz nəhayət ki, Qafqazın gələcəyi haqqında Qafqazın özündə qərarların verilə biləcəyinə ümüdlərimizin işıqlandığını görürük. Bakıda verilən qərarların Çindən başlayaraq Avropanın ucqarlarınadək

uzanan geosiyasi əlaqəlilikdə Qafqazın coğrafi əhəmiyyətini bir daha reallığa çevrir, regionumuzu böyük bir şimal- cənub əlaqəliliyində mühüm hub-a çevrilməsi üçün əhəmiyyətli geosyiyasi dayaqlar formalaşdırır. Bakının regional və beynəlxalq layihələri Cənubi Qafqazın lider ölkəsi olaraq ölkəmizin bütün regionu öz ardınca daha sabit, inkişaf edən və qlobal siyasətin, beynəlxlq gündəliyin mərkəzinə gətirməsini şərtləndirir. Cari ilin avqust ayında Vaşinqtonda imzalanmış mühüm sənəd buna bariz misaldır. Hər birimiz Vaşqintonda Azərbaycan və Ermənistan arasında ABŞ prezidentinin vasitəçiliyi ilə imzalanmış sazişin regionumuzda sülh, əməkdaşlıq və yeni kommunikasiya strukturuna xidmət edəcəyini aydın şəkildə təsəvvür edə bilirik.

Bu eyni zamanda bizim milli gündəliyimzdə növbəti bir addımın yeni səhifəsidir. Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq idoelogiyasının mərkəzində dayanan milli-mənəvi, tarixi dəyərlərimizin qorunması, ona sahiblənmək sırasında Qərbi Azərabaycanda yerləşən milli mənəvi dəyərlərimizə bizi daha da yaxınlaşdırır.

Əziz dostlar, qeyd etdiyim kimi, sabah, biz, xalq olaraq, milli kimliyimizin bariz ifadələrindən biri olan Anım Gününü qeyd edəcəyik. Bütün Azərbaycanda olduğu kimi, Bakı Slavyan Universitetinin də kollektivi Bakıda yerləşən Zəfər abidəsini ziyarət edəcək, şəhidlərimizin əziz ruhunu bir daha dərin ehtiramla yad edəcəkdir. Bu gün, günün ikinci hissəsində universitetimizdə keçiriləcək tədbirlərdə şəhidlərimizi anacaq, onların ruhlarına minnətdalığımızı bildirəcəyik.

Azadlığımız, müstəqilliyimiz, suverenliyimiz və dövlətçiliyimiz yolunda həyatını itirmiş qəhraman Azərbaycan övladları sırasında Bakı Slavyan Universitetinin məzunları da vardır. Bir daha şəhid məzunlarımız Vüqar Suleymanov, Nicat Şükürlü, Kənan Rüstəmli, Elnur Allahverdizadə, Cavid Mirzəyevin simasında bütün şəhidlərimizə Uca Tanrıdan rəhmət, qazilərimizə isə şəfa diləyirik.

**Əziz həmkarlar!**

Qeyd etdiyim kimi, Balkanşünaslıq Konfransları müasir BSU-nun növbəti identifikatorlarından birinə çevrilməkdədir. 80 il tədqiqat və təhsil tarixinə, böyük potensiala malik olan ali təhsil müəssisimiz 25 il öncə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə universitet statusu daşımağa başlamışdır. 2025 və 2026-cı illərdə qeyd etdiyimiz bu mühüm tarixlər BSU-nun gələcək inkişafı üçün mühüm zəminlərin əsasını təşkil edir. Slavyanşünaslıq üzrə regionun birinci universiteti olan Bakı Slavyan Universiteti müasir dillərin öyrənilməsi, tədqiqi istiqamətində böyük hədəfləri müəyyən etmişdir. Qarşımızda duran uzun yol bizi müasir dillərin və mədəniyyətlərin öyrənilməsinin mükəmməllik mərkəzi olmağa aparır. Hazırda 12 əcnəbi dilin öyrənildiyi BSU-da dillərin və mədəniyyətlərin arealı bu tədris ilindən etibarən Mərkəzi Asiyaya da genişlənmiş, tələbələrimiz üçün özbək dilinin öyrənilmə imkanlarl yaradılmaqdadır. Bu il, biz eyni zamanda, tariximizdə ilk dəfə olaraq Universitetimizdə tədris olunmayan, tərəfdaş universitetlərimiz vasitəsi digər dillərin tələbələrimiz və müəllimlərimiz üçün öyrənilməsi imkanlarını yaratmışıq. Söhbət, hal-hazırda BSU-nun 10 nəfər tələbəsinin təhsil aldığı alban dilinin öyrənilməsindən gedir. Tiranada yerləşən tərəfdaş universitetlərimiz, xüsusi ilə, Tirana Universiteti və Tirana Nyu York Universiteti bu istiqamətdə bizə davamlı dəstəklərini verirlər. Fürsətdən istifadə edərək, hər iki universitetin rektoruna, eləcə də bu əlaqələrin qurulmasında müstəsna rolu olmuş ölkəmizin Albaniyadakı səfiri cənab Anar Hüseynova və tələbələmizin bir ay müddətində Albaniyada öyrənmə mühitinin təşkilində müstəsna rolu olan dostumuz professor Lindita Xhanariyə öz dərin təşəkkürümü çatdırıram. Bu gün bizimlə bu salonda yer alan Tirana Nyu York Universitetinin rektoru professor Əli Günəşi salamlayıram və bildirmək istəyirəm ki, universitetlərimiz arasında yaranmış yeni partnyorluğun çərçivəsində Bakı Balkanşünaslıq Konfransının Balkan bölməsi layihəsi üzərində də ilkin fikilrəri müzakirə etmişik.

BSU-nun növbəti illərdə tədrisini təklif edəcəyi yeni dil və mədəniyyətlər sırasında Şimali Makedoniya dilinin öyrənilməsi hədəfimiz vardır. Bu gün, bu zalda iştirak edən Müqəddəs Kiril və Mefodiy adına Skopye Universitetinin rektoru, dəyərli həmkarım Bilyana Angelova ilə bu imkanı, eləcə də qarşılıqlı şəkildə dil mərkəzilərinin təsis olunması imkanları müzakirə edəcəyik.

Bu cür müzakirələr həmçinin serb dilinin tədrisi məsələlərini də əhatə edir. Mən fürsətfdən istifadə edərək Belqrad Universitetinin professoru, Serb və şərqi slavyan xalqalrı ədəbiyyatı kafedrasının əməkdaşı Branko Vraneşin fəaliyyətini yüksək qiymətləndirir və onu salamlayıram.

Əziz dostlar, hər biziniz bilirsiziniz ki, türk dünyası ilə əlaqələr bizim üçün yalnız yerləşdiyimiz çoğrafiyanın deyil, eləcə də tarixi və mənəvi inkişafımızın tərkibidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Türk dünyasından başqa bizim evimiz yoxdur. Məhz öz evimiz kimi baxdığımız türk dünyasının ali təhsil müəssisələri ilə əməkdaşlıqların genişləndirilməsi BSU üçün də mühüm prioritetlərdəndir. Dünən, hörmətli həmkarım, Türkiyənin Ardahan Universitetinin rektoru, professor Öztürk Emiroğlu ilə gələcək əməkdaşlıqalarımızı cızacaq əməkdaşlıq protokolumuzu imzaladıq. Həyatını türkolgiyaya həsr etmiş, uzun onilliklər bizim də tərəfdaşlıq etdiyimiz Polşa ali təhsil müəssisələrində çalışmış Öztürk Emiroğlunun türk dünyasına səfərinin ölkəmizin ən gənc Universiteti olan Qarabağ Universiteti və 80 illik bir zəngin tarixə malik BSU-dən başlamasında da böyük bir rəmzin olduğuna inanıram. Növbəti il, Avropa və digər məkanlardan olan türkoloqların geniş bir müzakirə platformasına ev sahibliyi etmək arzusu ilə bir daha hər birinizi salamlayıram.

**Hörmətli həmkarlar!**

Bakı Beynəlxalq Balkanistika konfranslarının məqsədi bu regionun mədəniyyəti, dilləri, ədəbiyyatları, eləcə də goesiyasi və siyasi proseslərinin tədqiqatını və müzakirə platformasını genişləndirməkdən ibarət olmaqla, ali təhsil müəssisəsi kimi akademik və tədqiqatçı kadr hazırlığı prosesinə xidmət etməkdir. Bununla yanaşı, bu cür konfransların yaratdığı ən böyük dəyərləri sırasında isə xalqlar, insanlar və ölkələr arasında mədəni əlaqələrin genişlənməsinə xidmət etməsidir. İnanıram ki, Bakı Beynəlxalq Balkanşünaslıq Konfransları da məhz bu amala daha dərindən xidmət edəcəkdir. Əminəm ki, bu günki çıxışlarda, xüsusi ilə akademik Rafael Hüseynovun, energetika nazirinin müavini Elnur Soltanovun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin direktoru Rəvan Həsənovun, MM-in Serbiya dostluq qrupunun sədri, millət vəkili Məlahət İbrahimqızının təqdimatında biz insanlar və xalqalr arasında bu əlaqələyinin müxtəlif aspektlərinə rast gələcəyik.

Cari ilin aprel ayında Tiranada və Sofiyada tələbələr qarşısında etdiyim mühazirələr də əslində kimliyimiz, hədəflərimiz haqqında bu ölkələrin gənclərinə məlumat vermək, qarşılıqlı öyrənmək və birgə işlərimizi genişləndirmək məqsədi daşıyırdı. İki universitetin ümumulikdə 200 nəfərə yaxın tələbəsinin iştirakı ilə keçirilən “Azərbaycan regional lider və etibarlı tərəfdaş” mövzusunda olan bu mühazilərdə yerli tələbə və müəllimlərin ölkəmizə və regionumuza böyük marağının olduğunu bir daha hiss etdik.

Bu gün əziz dostum, professor Madlen Danova ilə birlikdə Müqəddəs Klement Orxdiski adına Sofiya Universiteti ilə əməkdaşlığımızı yeniləyən memorandumunu imzalayacaq və mədəniyyətlərin öyrənilməsi istiqamətində fəaliyyətimizi genişləndirəcəyik.

**Əziz dostlar!**

Bu cür konfranslar, həm də mədəniyyətlərin görüşü, mədəni, ədəbi dəyərlərin öyrənilməsi və paylaşıması üçün böyük imkandır. Çıxışımın əvvəlində senytabr ayının Azərbaycan tarixi üçün nə qədər əhəmiyyətli olduğunu bildirdim. Sentyabr ayı bizim xalq üçün, eləcə də dünya musiqisi üçün növbəti mühüm bir ünvandır. Sentyabrın 18-də qeyd etdiyimiz milli musiqi günü və dahi bəstəkar Üzeyir Hacıbəyovun 140 illik yubileyi ölkəmizdə böyük təntənə ilə keçirilir. Hər birimizin milli ruhunun tərkibini təşkil edən himnimizin bəstəkarı olan dahi Üzeyir bəyin əsərlərindən ikisini bu gün bizim istedadlı tələbələrimiz sizə təqdim edəcəklər. Milli dəyərlərimizi, həyata, mənəviyyata, dünyaya baxımızı ifadə edəcək bu çıxışların konfransımıza xüsusi rəng qatacağına əminəm. Tələbələrimzə və onları hazırlayan həmkarlarıma təşəkkür edirəm.

**Hörmətli həmkarlar, əziz qonaqlar, professor-müəllim heyəti və tələbələr!**

BSU-nun Yüksək Təhsil Mərkəzinin loqosu altında təşkil edilən bu konfransın ərsiyyə gəlməsində zəhməti olmuş bütün həmkarlarıma, o cümlədən Universitetimizin Şərqi Avropa və Balkanşünaslıq fakültəsinə, Balkanşünaslıq kafedrasına, birinci konfransın təşkilində mühüm yer almış Türkologiya kafedrasına, bütün texniki və inzibati məsələlərə cavabdeh həmkarlarıma, və təbii ki, BSU tələbə könüllülərinə dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, bu gün müxtəlif bölmələrdə maraqlı müzakirələr, təqdimatlar və məqalələr dinləniləcək, növbəti konfransımız üçün istiqamətlər müəyyən olunacaqdır.

Bir daha hər birinizi BSU-da salamlayır, konfransın işinə uğurlar arzu edirəm.